| | "İODICO" MMC-nin SİYASƏTLƏRİ | Sənəd kodu | "İODİCO"/İMS/SİYASƏT/01 |
|---|---|---|---|
| iodico | | Təftiş tarixi | 03.09.2024 |
| | | Təftiş № | 01 |

**"Təsdiq edirəm"**
**"İODİCO" MMC-nin baş direktoru**
**_______________R.C.Xəlilov**
**«03» 09 2024-cü il**

## KEYFİYYƏT SİYASƏTİ

"İODICO" MMC-nin keyfiyyət siyasəti şirkətin ümumi inkişaf strategiyasının bir hissəsidir. Şirkət işçilərindən gündəlik fəaliyyət və qərarlarında bu sənədin müddəalarına riayət etmələrini tələb edir. "İODICO" MMC-nin keyfiyyət sahəsində əsas məqsədi qlobal bazarda məhsulun realizasiyasını genişləndirməkdir. Bu baxımdan şirkət müştəri məmnuniyyətini daim yüksəltmək üçün müştəriyönümlü fəaliyyətinə xüsusi diqqət yetirir. Şirkət fəaliyyətində aşağıdakı prinsipləri rəhbər tutur:

- ✓ Hər bir müştəriyə fərdi yanaşma, mövcud müştəriləri saxlamaq və rəqabətqabiliyyətli məhsullarla yeni müştəriləri cəlb etmək;
- ✓ Kadrların müntəzəm təlimi və təkmilləşdirilməsi yolu ilə fəaliyyəti daim təkmilləşdirmək;
- ✓ Biznes proseslərinin idarə edilməsinə və optimallaşdırılmasına risk əsaslı yanaşmanın tətbiqi;
- ✓ Baş vermiş uyğunsuzluqların nəticələri ilə məşğul olmaqdansa, öncədən uyğunsuzluğun qarşısını almaq;
- ✓ Məhsulların keyfiyyətinin təmin edilməsi;
- ✓ Bütün maraqlı tərəflərlə açıq dialoqun qurulması və davam etdirilməsi, sorğu və şikayətlərin operativ şəkildə həll edilməsi;
- ✓ Beynəlxalq təcrübənin təhlili əsasında və sənayenin xüsusiyyətləri nəzərə alınmaqla effektiv keyfiyyət idarəetmə sisteminin işlənib hazırlanması və tətbiqi;
- ✓ Məhsulun keyfiyyətini artırmaq üçün müştəri rəyindən istifadə etmək.

"IODICO" MMC-nin icraçı rəhbərliyi bu siyasətin həyata keçirilməsinə cavabdehlik daşıyır və keyfiyyətin idarə edilməsi sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olunması, müvafiq tələblərə əməl olunması, habelə keyfiyyətin idarə edilməsi sisteminin səmərəliliyinin artırılması üçün şərait yaradır və onun həyata keçirilməsini təmin edir.

Bu öhdəliklər aşağıdakılardır:

- ✓ Şirkətin əsas biznes proseslərinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması və təklif olunan xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə onların müntəzəm təhlili;
- ✓ Şirkətin müxtəlif şöbələri arasında biznes fəaliyyətinin əlaqələndirilməsini təmin etmək;
- ✓ Səmərəli təşkilati strukturun saxlanılması;
- ✓ İşçi heyətinin Keyfiyyət Siyasətini başa düşməsini, bütün səviyyələrdə və bütün şöbələrdə ona ciddi riayət etməsini təmin etmək;
- ✓ Keyfiyyət idarəetmə sisteminin müəyyən edilmiş tələblərə uyğunluğu və onun effektivliyinin daim təkmilləşdirilməsini təmin etmək.

Şirkətin rəhbərliyi bu siyasətin həyata keçirilməsinə cavabdehdir. Bu siyasət bütün işçilərə və podratçılara çatdırılır.Ofis, sex və sahələrdə bildiriş lövhələrində göstərilir.